# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# F Ə R M A N I

**Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyinin ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin “Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” 2024-cü il 23 noyabr tarixli Fərmanına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyi ləğv edilsin.

2. “Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması və fəaliyyətinin təşkili barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 20 may tarixli 239-VI FR nömrəli Fərmanı ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Fərman 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 29 dekabr 2024-cü il
№ 7-VII FR